# Yarmarkaların ən qürurlusu




Xalqımız Vətən müharibəsindəki qələbənin birinci ildönümünə hazırlaşır. Zəfər münasibətilə respublikamızın dörd bir tərəfində müxtəlif tədbirlər keçirilir.

Bunlardan biri də Dənizkənarı Milli Parkda təşkil olunan “Zəfər” yarmarkasıdır.

Oktyabrın 29-dan başlayan yarmarka noyabrın 9-dək davam edəcək. Yarmarkanın təşkilatçıları “Yaşat” Fondu, Müdafiə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Dənizkənarı Bulvar İdarəsi və Azərbaycan Peyntbol Federasiyadır.

Yarmarkaya daxil olanda insan sanki başqa bir aləmə düşür. Əsgər yeməkxanası, ərzaq tədarük anbarı, atıcılıq çadırı və hərbçilərin geyim və ləvazimatları, 44 günlük müharibədə istifadə olunan silah və sursatlar, hətta ağır artilleriya... Xeyr, bura hərbi şəhərcik deyil, “Zəfər” yarmarkasıdır.

*Ardı 5-ci səh.*








# Yarmarkaların ən qürurlusu

Əvvəli 1-ci səh.

Girişdə "Yaşat" Fondunun köşkü var. Vətəndaş nabələddirsə, köşkə yaxınlaşıb istədiyi məlumatı əldə edə bilər. Burada fonda ianə də etmək mümkündür.

Gün boyu yarmarkada Bakı Şəhər Mədəniyyət İdarəsi və "Asan" Radionun təşkilatçılığı ilə konsert proqramları təşkil olunur. Pəhləvanlarımız da öz bacarıq və güclərini rəngarəng çıxışlarla nümayiş etdirirlər.

Burada əsgər və zabitlərimizin döyüş zamanı istifadə etdikləri yeməkxana və tədarük anbarının pavilyonları da yaradılıb. Ziyarətçilər yeməkxanada təamlardan da dada bilərlər.

Yarmarkada qurulan səyyar kitab köşklərində gənclərin milli vətənpərvərlik ruhunu və özünüdərk şüurunu inkişaf etdirən kitabların satışı həyata keçirilir.

Hərbçilərimiz böyük zövq və qürur hissiylə uşaqlarla söhbət edir, rəsmlər çəkdirir, eksponat və texnikalarla tanış edirlər. Bütün bunların canlı ifa olunan "Qarabağ şikəstəsi"nin sədaları altında olması isə bir başqa zövq və bayram tablosudur. Yarmarkada nümayiş edilən hərbi texnikalar və avadanlıqların hamısı 44 günlük müharibədə istifadə olunub. Başqa sözlə desək, qələbəmizin şahididirlər.

Həmsöhbətim olan zabit Anar Sabirli bildirdi ki, özü və silahdaşları noyabrın 9-dək yarmarkada olacaqlar. Belə yarmarkaların təşkili övladlarımızda vətənpərvərlik hissinin aşılanmasında, mərdlik, milli təəssübkeşlik və özünəinam kimi ali məziyyətlərin formalaşmasında əhəmiyyətli rol oynayır.

Zabit Anar Hüseynov isə burada olmaqdan qürur hissi duyduğunu, insanları, onların sevincini gördükcə necə şərəfli peşə seçdiyinə bir daha əmin olduğunu vurğuladı.

"Zəfər" yarmarkasının təşkilinin ən mühüm tərəfi də odur ki, "Qarabağ qəhrəmanlarının izi ilə" devizi altında keçirilən bu tədbirdən əldə olunan gəlir şəhid ailələrinə və qazilərimizə dəstək məqsədilə "Yaşat" Fonduna ianə ediləcək.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"













Azərbaycan.- 2021.- 3 noyabr.- S.5.